# GÜLEYŞƏ...

## (Hekayə)

*(Əvvəli ötən saylarımızda)*

**Çayxanıada olan söhbətdir. Bir qoca veteraın belə deyirdi:**

-Qiyameıt kişidir. Başçı belə olar da, balam. Yoxsa, Qəzənfər Yanardağ kimıi !? "Mersedes"də gedərkən ancaıq qabağa baxardı. Bir sağınabir so luna baxmırdı ki, bu şəhərdə küçə lərin, xiyabanların vəziyyəti necə dir? İndiki başçı isə gör az bir vaxtda nələr yaradıb?! Nələr etməyib?!

Küçələri asfaltlaşdırıb, xiyaba nları yenidən qurdurulı, adamlara yeni iş yerləri açdırıb. .Bürokratçıların dədəsini yandırıb. Deyirlər ki, onlar da çəkilib olubl.ar ona qarşı müxalifət. Çox cəsarətli adamdır. Xalq gərək belə adamları həmişə müdafiə etsin.

İcra başçısı haqqında söhbətlər, adətən, çay xanalarda, bərbərxanalarda, müə llimlərin tənəffüs vaxtlarında, məc lislərdə, adamların gur olduğu yerlərdə tez-tez eşidilirdi. Və günlər, aylar, illər bir- birini əvəz etdikcə., icra başçısı da yerində tam möhkəmlənirdi. Artıq sayılan, hörməti saxlanılan, yuxarı dairələrdə sözü keçən icra başçılarından biri olmuşdu.

***

İcra başçısı fikirdə ikən köməkçi içəri daxil olub bildirdi ki, gözləmə otağında bir qadın onun qəbuluna gəlmək istəyir. Gec də olsa, başçı razılığını bildirdi.

Qapı açıldı və içəriyə arıq bir qadın daxil oldu. Üstü-başı tökülmüş, saçları ağarmış bu qadının gözləri çüxura düşmüşdü. Dodağının sağ tərəfindəki qara xalı arıq olsa da, ona çox yaraşıq verirdi.

İcra başçısı qadına əyləşmək üçün yer göstərdi. Üzbəüz oturdular.

-Mən sizi eşidirəm, xanım.

Qadın başını qaldırmadan utana-utana:

-Bura gələrkən nə qədər həyəcan keçirtdiyimi tək Allah bilir.

-Həyəcanlanmayın, xanım, buyurun, mən sizi dinləyirəm.

Qadın yerini rahatladıqdan sonra çantasından pasportunu çıxarıb icra başçısına uzatdı.

-Bu, mənim pasportumdur. Hələ təzəsini-milli pasportumuzu ala bilməmişəm. İttifaq dövründən qalmadır. Xahiş edirəm vərəqləyin.

Başçı pasportu alıb vərəqləri çevirməyə başladı; qadına baxdı, bir daha ilk şəklə baxdı, sonra yenə qadına baxıb ürəyində qışqırdı: "Aman Allah, bu ki, Güleyşədir! Təsadüfə bir bax!"

Güleyşədən bircə üst dodağının sağ tərəfində olan qara xalı nişanə qalmışdı.

-Güleyşə...Güleyşə...Səni xoş gördük! Nə xoş təsadüf! Mən səninlə uzun illərin ayrılığından sonra ilk dəfədir ki, saçlarımızın ağardığı bir zamanda görüşürəm.-deyib, ayağa qalxıb onunla görüşdü. Ürəyi möhkəm döyündü.

-Bəli, elədir. O illər həzin bir xatirəyə çevrilib. Qar yağırdı...Aydın bir gecə idi...

-Danışma, Güleyşə. Sən bu illər ərzində mənim üçün bir xəyala çevrilmişdin. Yerini-yurdunu da bilmirdim. Taleyin burulğanlarına atılmağın sənə nə verdi, Güleyşə? Çəkinmə, xahiş edirəm, açıq söylə.

-Xəlil müəllim...

-Mənə sadəcə olaraq Xəlil de, Güleyşə. Belə yaxşıdır.

-Xəlil, o təndirdəki çörək qazmağı yadındamı?

-Yadımdadır, Güleyşə. Necə də yadımda olmasın? O günlər həyatımızın elə parçalarıdır ki, hər bir xatirə korşala bilər, ancaq saf duyğularla yoğrulmuş, mayasını ilk məhəbbətdən götürmüş xatirələr yaddan çıxa bilməz.

-Xəlil, and olsun o günlərin əziz xatirəsinə, buraxdığım səhvlər üçün həmişə xəcalət çəkirəm; yanıram; içimdə qovruluram...Heç bəxtəvər günüm olmayıb.-gözləri doldu Güleyşənin, bir neçə damla yanaqlarından süzüldü, qara xalın üzərində yığılıb,üzüaşağı axmağa başladı və birdən özündən asılı olmayaraq hönkürdü.

Xəlil ona su tökdü. Özü də kövrəldi. Üzr istəyib bir siqaret yandırdı, ayağa qalxıb pəncərəni açdı, otaqda var-gəl etməyə başladı. Güleyşə sakitləşəndən sonra yerində əyləşib dedi:

-Güleyşə, sən dərdli adama oxşayırsan. Mənə açıq danış, heç bir şeyi gizlətmə, xahiş edirəm.

Güleyşə yaylığının ucu ilə göz yaşlarını qurudub söhbətinin ardını belə davam etdi:

-Bağışla, Xəlil. Yanında çox günahkaram. Sən gözəl, təmiz insansan, başlıcası isə, saf təbiətə maliksən. Sözü bütöv adamsan, xeyirxah san. Mən isə, görünür, gəncliyimdə yelbeyin olmuşam. Məni ərə verəndən on beş il sonra uşaqların atası qəza nəticəsində şikəst oldu. Uşaqları saxlamaq mənim üstümə düşdü. Üç il öncə o bədbəxt də dünyasını dəyişdi. Sən demə, bədbəxtlik məni daban-dabana izləyirmiş, evimiz də səhlənkarlıq nəticəsində yanıb kül oldu, içərisindən heç bir şey çıxara bilmədik. Qonşumuz həyət evini bizə verdi. Sağ olsun, orada qalırıq. Etdiyin köməkliyə görə sənə təşəkkürümü bildirməyə gəlmişəm. Yeni evimiz əvvəlkindən də gözəl və yaraşıqlıdır. İki günə köçəcəyik. Ailəmiz sənə minnətdardır. Çox sağ ol! Həmişə xalq qarşısında başın uca olsun, Xəlil!

Xəlil Rəhmanlı indi başa düşdü ki, yanğından zərər çəkən kim imiş.

Güleyşə ona tanışlıq verməmişdi. Fərqi yox idi. Güleyşə və yaxud da qeyri birisi olsun. O, öz borcunu yerinə yetirmişdi. Ancaq Güleyşənin bu qərib rayonda məskunlaşmasını heç ağlına belə gətirə bilmirdi.

Güleyşə ayağa qalxdı.

-İşin ağırdır, vaxtını aldım sənin, Xəlil. Etdiyin köməklik üçün bir daha sənə "Sağ ol!" deyirəm.

-Güleyşə, bir yerdə işləyirsənmi?

-Xeyr, işləmirəm, elə belə, orda-burda evlərdə işləyirəm. Evdə xanımlıq edənlərin təmizlik işlərini görürəm.

Xəlil fikrə getdi. Güleyşənin halına acıdı. Ürəyi göynədi, halı dəyişildi. Ağrılı-acılı günlər keçirmiş ilk məhəbbətinin yadigarına köməklik etmək qərarına gəldi. Bir vətəndaş kimi, rayonun icra başçısı kimi...

-Gör sənə nə deyirəm, Güleyşə. Müavinimə tapşırıq verəcəyəm, səni də, evdəki qızını da müvafiq bir işlə təmin etsinlər. Sən mənim üçün təkcə Güleyşə deyilsən, sən də, övladların da bizim qayğımızla əhatə olunmalısınız. Odur ki, nə çətinliyin olarsa, Xəlili yadına sal, mən sənə doğma adamam...

Xəlil Rəhmanlının səsi titrədi, qəhərləndi.

Güleyşə Xəlillə görüşüb qapıya yanaşdı, bir anlığa geriyə çevrilib Xəlili süzdü. Xəlil bu arıq qadının yerində sanki gəncliyində gördüyü ala gözlü, püstə dodaqlı, qara xallı, məhzun baxışlı Güleyşəni görürdü.

-Güleyşə...

-Xəlil...

Bu zaman şəhərin işıqları bir anda söndü, otaq tam qaranlığa büründü. İçəridə göz-gözü görmürdü.

-Güleyşə,!

-Yavaş, mən buradayam, Xəlil. Sağ tərəfə gəl.

-Heç bu zil qaranlıqda sağ və sol bilinir ki...

Qaranlıqda bir-birinin əllərini möhkəm sıxdılar. Və birdən işıqlar yenə yandı. Hər tərəf nura qərq oldu. Və birdən hər ikisi diksinib əllərini yana çəkdilər. Güleyşənin yanaqlarından süzülən göz yaşları işığın nurunda göydəki ulduzlar kimi elə parıldayırdı ki...

Binaya yaxın olan evlərin birindən süzülüb ləpələnən musiqi sədaları icra başçısının açıq pəncərəsindən otağa yayıldı.

Mən səni çox sevirəm, Güleyşə,
Yolunda can verərəm, Güleyşə...

Musiqi sədaları altında Güleyşə otaqdan çıxdı. Qapı arxasınca bağlananda rahatca bir nəfəs aldı. "İlahi, sənə çox şükürlər olsun!"

***

Güleyşə getdi. Binadan çıxarkən Xəlil Rəhmanlı açıq qoyduğu pəncərədən onun getdiyi yola boylandı. Güleyşənin ayaqqabılarının səsi bir qədər sonra meydanda aydın eşidilirdi. Get-gedə uzaqlaşdıqca səs də azalır, Güleyşə də bir xəyala çevrilirdi. Ancaq bu xəyal deyildi.



Canlı Güleyşə idi. Əsil Güleyşə idi- gəncliyinin yadigarı olan Güleyşə...

Musiqi isə ürək parçalayırdı...

...Taledən heç küsmə gəl, Güleyşə,
Qəlbimə məlhəm ol gəl, Güleyşə...

Güleyşə getdi. Ancaq Xəlil Rəhmanlının qəlbini də titrədib getdi; yerindən oynadıb getdi...

Xəlil qızın bu sözlərində tamam yeni notlar oxudu. Bu yad, ibarəli və eyhamlı sözlər onun qanını qaraltsa da, Xəlil qızın etibarsız sözlərinə nədənsə cavab vermədi, təmkinini pozmadı. Daş hasara tərəf addımladı.

Ayaqlarını qar üzərində gəzdirə-gəzdirə hasara yaxınlaşdı. Cəld və çevik bir hərəkətlə yuxarı dırmaşıb geri çevrildi.

-Mən səni çox sevirəm, Güleyşə...-deyib cəld hasarın o tərəfinə tullandı. Daha sonra onun addım səsləri get-gedə uzaqlaşdı. Daha sonra Güleyşə də üşüyüb oğrun-oğrun evlərinə tərəf addımladı. Pəncərəni açıb içəri girdi. Yorğanı üstünə çəkərək başa düşdü ki, bu görüş onların son görüşləridir. Ürəyinə belə dammışdı...

Göz yaşları balıncı islatdı. Öz zəifliyinə təəccüb etdi. Düşündü: "Bəs niyə belə yelbeyin olub axı?" Öz-özünə sual etdi Güleyşə."Axı xoşbəxtlik bu qədər yaxın ikən onu taleyin ümidinə buraxmaq hardan gəldi ağlıma? Heç bu da sözdür: Gəl öz eşqimizi taleyin burulğanına buraxaq. Gör nə dedim Xəlilə. İlahi, bu sözün arxasında inamsızlıq yoxdurmu? Axı həyatında ilk oğlan idi ki, onun köksünə sığınıb ona bütün varlığını etibar edib. Necə ola bilər ki, Xəlili sevə-sevə başqasına qismət olsun? Axı bu necə ola bilər?!"

Güleyşə bir neçə saat da yerində qovruldu, ancaq yata bilmədi. Yad bir duyğunun qəlbinin ən dərin guşəsinə girib şeytan kimi harayasa sürükləməsindən doğan qorxu hissi onu yerində üşütdü, canına od saldı, yuxusunu ərşə çəkdi...

"Mən təslim olmayacağam! Xəlilsiz yaşaya bilmərəm! Xəlil mənim həyatım, ömrümün mənasıdır. Onun saflığını heç nəyə dəyişmərəm."

Gözlərini açıb pəncərədən boylandı. Aydınlıq idi. Qar xəfif-xəfif yağırdı. Güleyşə Xəlilin qar üzərindəki ayaq izlərinə baxdı. Köksünü ötürdü. Kəndin camaatı hələ yuxuda idi. Qarın yağmasından bəlkə də çoxlarının xəbəri yox idi. "Yəqin Xəlil indi ayıqdır. Ertədən Bakıya gedəcəkdi. Amma heç yaxşı olmadı. Mən ona ümidverici bir söz demədim. Ancaq Xəlil isə mənə elə baxdı ki, bu baxışları ilə ürəyimə od saldı, yandırdı məni, tüstümü ərşə çıxartdı. "Mən səni çox sevirəm, Güleyşə" dedi. Özü də çox kövrək dedi, yanıqlı dedi...Mən nə edim, İlahi? Məhəbbətimi necə qoruyum, necə?"

***

Yeni icra hakimiyyəti başçısının rayona təyin edilməsi xəbəri tezliklə hər kəndə, hər evə yayıldı. Hamının sözü-söhbəti ancaq bu mövzuda idi. Kimi işlərin qaydaya düşəcəyindən, kimi kök atmış bürokratçıların siçan deşiyi axtarmasından, kimisi də icra başçısının yeni islahatlarından ağız dolusu danışırdı. Amma hələlik onun kim olması haqqında elə bir məlumat yox idi. Deyirdilər ki, arvadı dünyasını çoxdan dəyişib. Hələlik onun kreslosu boş idi. Kreslo öz başçısını gözləyirdi.

Bir neçə gündən sonra rayon icra hakimiyyətinin başçısı kreslosunda əyləşdi və rayondakı söz-söhbətə elə bil ki, bir sərinlik gətirdi. Qurbağa gölünə daş atılan kimi, adamlar da sakitləşdilər. Görəsən, indi nə baş verəcək? Kimi çıxarıb, kimi yerinə qoyacaqlar? Kimlər canfəşanlıq edəcək, kimlərə inanacaq icra başçısı?

**İnsafən, yeni icra başçısı çox ciddi, sözünün yerini bilən, əyintilərlə barışmayan, qayğıkeş, bir qədər də mehriban görünürdü. Saçı ağarmışdı. Qəbulunda olan adamlar onun işin icrasına dərhal nail olmasından ürək dolusu danışır, onu tərifləyirdilər, hətta ona dua edənlər də vardı.**

**Səyavuş SÜLEYMANLI,**
**Lənkəran, Liman şəhəri,**
**12. 07. 2005**